İPƏK YOLU, No.3, 2026, səh.337-348
https://doi.org/10.30546/SI.2026.03.01.1035

# AZƏRBAYCAN TARİXİNDƏ SULTANLIQLAR: ƏRƏŞ, QƏBƏLƏ VƏ QUTQAŞIN SULTANLIQLARI NÜMUNƏSİNDƏ

**Qabil Əliyev**

Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: qabilalioglu1956@gmail.com

**Xülasə.** Məqalədə Azərbaycanın Ərəş, Qəbələ və Qutqaşın sultanlıqlarında XVIII əsrin əvvəllərindən başlayaraq XIX əsrin ilk onilliklərinə qədərki dövrdə baş vermiş ictimai-siyasi hadisələr ilkin mənbələr əsasında araşdırılmışdır. Bu sultanlıqların əvvəlcə siyasi müstəqillik qazanması, regionda baş verən siyasi proseslərdə iştirakı, sonrakı onilliklərdə isə Şəki xanlığına tabe edilməsi və yarımüstəqil feodal hakimliyindən adi mahala çevrilməsi tədqiq edilmişdir. Bu dövrdə yerli idarəçilikdə, sultanlıqların ictimai-siyasi həyatında baş vermiş dəyişikliklər və onların doğurduğu nəticələrin təhlili müəllif tərəfindən diqqət mərkəzində saxlanılmışdır.

**Açar sözlər:** Ərəş, Qəbələ və Qutqaşın sultanlıqları, Şəki xanlığı, Ağdaş, Alpout, Padar, Bum, Xaçmaz mahalları.

**SULTANATES IN THE HISTORY OF AZERBAIJAN: CASE STUDY OF THE ARAS, GABALA AND GUTGASHIN SULTANATES**

**Gabil Aliyev**
*Baku State University, Baku, Azerbaijan*
*Azerbaijan University, Baku, Azerbaijan*

**Abstract.** This article, based on primary sources, examines the socio-political events that took place in the Arash, Gabala and Gutgashin sultanates of Azerbaijan from the early 18th century to the first decades of the 19th century. It primarily highlights the acquisition of political independence by these sultanates, their participation in regional political processes, as well as their subordination to the Shaki Khanate in the following decades and their transformation from semi-independent feudal rule into ordinary mahals. The author focuses on the changes that occurred in local governance and the socio-political life of the sultanates during this period and analyzes their consequences.
**Keywords:** Arash, Gabala and Gutgashin sultanates, Shaki Khanate, Agdash, Alpout, Padar, Bum and Khachmaz mahals.

## 1. Giriş

Azərbaycanda XVIII əsrin 40-cı illərində yaranmış müstəqil və yarımüstəqil feodal hakimlikləri içərisində sultanlıqlar da mühüm yer tuturdu. Sultanlıqlar içərisində ərazi və əhalisinin sayına görə ən böyüyü Ərəş sultanlığı idi. Bu sultanlıq indiki *Yevlax rayonunun* Kür çayından şimal hissəsini, *Ağdaş rayonu* ərazisini, eləcə də *Mingəçevir şəhəri* ərazisini əhatə edirdi. XVIII əsrin sonunda sultanlıq Şəki xanlığına tabe edildikdən sonra, onun yerində xanlığın inzibati bölgüsünə uyğun olaraq *Ərəş, Ağdaş, Alpout və Padar mahalları* yarandı.

Qəbələ sultanlığı indiki *Qəbələ rayonunun* qərb hissəsini, *Oğuz rayonu* ərazisini, həmçinin *Ağdaş rayonu* ərazisinin şimal bölgəsini əhatə edirdi. XVIII əsrin 50-ci illərinin ortalarında Qəbələ şəhəri kütləvi yoluxucu xəstəlik və zəlzələ səbəbindən, əhali tərəfindən kütləvi tərk edilməsi nəticəsində tənəzzül etdi. Eyni adlı sultanlıq tarix səhnəsindən çıxdı,

ərazisində Şəki xanlığına tabe olan yeni inzibati vahidlər: *Bum və Xaçmaz mahalları* təşkil edildi.

Qutqaşın sultanlığı indiki *Qəbələ rayonunun* şərq hissəsini, həmçinin *İsmayıllı rayonu* ərazisinin qərb hissəsini əhatə edirdi. XVIII əsrin sonunda sultanlıq ləğv edildikdən sonra, bu bölgə Şəki xanlığı tərkibində *Qutqaşın mahalı* adlandı. 1819-cu ildə Şəki xanlığı ləğv edilib, Rusiyanın əyalətinə çevrildiyi zaman bu mahalın 15 kəndi Qutqaşın sultanları nəslindən olan Əhməd sultan və Hacı Nəsrulla sultan qardaşlarına məxsus idi [1, s.89]. Mahalın daha 11 yaşayış məntəqəsi isə Əhməd sultan, Hacı Nəsrulla sultan qardaşlarının və Hacı Şəfi bəyin irsi idarəçiliyində idi [1, s.76-77].




Təqdim edilən məqalədə Azərbaycan sultanlıqlarının tarixi Ərəş, Qəbələ və Qutqaşın sultanlıqları nümunəsində araşdırılmış, XVIII əsrdən başlayaraq XIX əsrin ilk onilliklərinə qədərki dövrdə bu sultanlıqlarda baş vermiş ictimai-siyasi hadisələr ilkin mənbələr əsasında tədqiq edilmişdir. Bu bölgələrin əvvəlcə Şəki xanlığına tabe edilməsi gedişində və sonrakı

dövrdə yerli idarəçilikdə, ictimai-siyasi həyatda baş vermiş dəyişikliklərin və onların doğurduğu nəticələrin təhlil edilməsi diqqət mərkəzində saxlanılmışdır.

Məqalənin əsas elmi yeniliyi Ərəş, Qəbələ və Qutqaşın sultanlıqlarının öncə müstəqillik qazanılması ərəfəsindəki vəziyyəti, yarımüstəqil feodal hakimlikləri kimi ictimai-siyasi proseslərdə iştirakı, Şəki xanlığına birləşdirilməsi zamanı və sonrakı onilliklər ərzində ənənəvi idarəetmənin ləğv edilməsi və yeni idarəçiliyin tətbiqi, eləcə də bu hadisələr fonunda baş verən dəyişikliklərin hərtərəfli və müqayisəli şəkildə təhlil edilməsidir.

## 2. Müstəqillik ərəfəsində ictimai-siyasi vəziyyət

XVI əsrin 30-cu illərində Şirvan şahlığının, ardınca da Şəki hakimliyinin Səfəvi dövlətinə birləşdirilməsi gedişində Ərəş, Qəbələ və Qutqaşın bölgələri də Səfəvi sülaləsinin hakimiyyətinə tabe edildi və Şirvan bəylərbəyiliyinin tərkibinə qatıldı. Səfəvi şahlarının hakimiyyəti dövründə ayrı-ayrı bölgələr sədaqətli hərbi xidmət əvəzində iri feodalların idarəsinə verilirdi və ölkə adlanırdı. Ölkə hakimləri onlara verilən torpaqları ya *tiyul* - şərti torpaq mülkiyyəti, ya da *soyurqal* - irsi torpaq mülkiyyəti kimi idarə edirdilər. Ölkə hakimi vergi immunitetinə malik idisə *sultan,* malik deyildisə, sadəcə *hakim* adlanırdı. Səfəvi şahlarının iradəsi ilə Ərəş ölkəsi onun hakiminin - sultanının irsi mülkiyyətində qalmışdı və qismən vergi immunitetinə malik idi [2, s.73]. Elə o zamandan da tarixi qaynaqlarda Ərəş sultanlığı adlanırdı.

Ərəş bölgəsindən görkəmli Azərbaycan tarixçisi A. Bakıxanov ilk dəfə 1551-ci il hadisələri ilə əlaqədar bəhs etmişdir. "Gülüstani-İrəm" əsərində qeyd olunmuşdur ki, Səfəvi şahı I Təhmasibin Şəki hakimliyinə - ölkəsinə yürüşü zamanı Kaxeti hakimi Ləvənd xan Səfəvi dövlətinə itaət etdiyini bildirmək üçün 1551-ci ildə Ərəş qəsəbəsində şahın hüzuruna gəlmişdi [3, s.104]. XVIII əsrin başlanğıcında *Ərəş sultanlığına* Əli sultan başçılıq edirdi.

XVIII əsrin ilk onilliklərində *Qəbələ bölgəsinin Qutqaşın kəndində* Qarasu adlanan yerdə müsəlman məliklərinin nəsli hakimlik edirdi. Həmin nəsildən olan məlik Mahmud bütün Qəbələ ölkəsinin sultanı idi [4, s.72]. Tarixi mənbələrdə məlik Mahmudun istedadlı, bacarıqlı ölkə hakimi olması qeyd olunmuşdur. Lakin tezliklə onun rəqibi ortaya çıxdı. XVIII əsrin başlanğıcında Qarabağın Xaçın bölgəsindən, məlik nəslindən olan Barsaq adlı alban keşişi ailəsi ilə birlikdə Qəbələ ölkəsinin Soqutlu (Söyüdlü) kəndinə köçdü və bu yerlərin hakimi olmaq uğrunda mübarizəyə başladı. O məqsədinə çatmaq üçün İsfahana gedib Səfəvi şahından müvafiq fərman almağa nail oldu. Lakin məlik Mahmud zirək tərpənərək, Barsaqın Qəbələ bölgəsinin məliyi olmaq planını həyata keçirməyə imkan vermədi [4, s.72].

XVIII əvvəllərində Ərəş hakimi Əli sultan əhalinin ümumi narazılığından istifadə edib mövqeyini möhkəmləndirməyə çalışırdı. O, 1711-ci ildə Carda başlanan üsyandan xəbər tutduqda, bölgə əhalisini mübarizəyə qaldırdı. Həmin vaxt Şirvan bəylərbəyinin özbaşınalığı və əhalini əlavə vergilər ödəməyə məcbur etməsi, ümumi narazılığı gücləndirmişdi. Əli sultan üsyana rəhbərlik edərək, narazı əhalinin içərisində öz nüfuzunu yüksəltməyə nail oldu.

Üsyançıların sırasında Ərəş əhalisi ilə yanaşı, çoxlu sayda Car, Şəki, Qəbələ və Şirvan kəndliləri də döyüşürdü.

Səfəvi şahı Sultan Hüseynin verdiyi əmrə əsasən, Şirvan bəylərbəyi bu üsyanı yatırmaq üçün böyük qoşunla hərəkətə keçdi. Lakin Əli sultanın başçılığı ilə üsyançılar Şəki mahalında bu qoşunu məğlub etdilər, Şirvan bəylərbəyi Həsənəli xan isə döyüş zamanı öldürüldü [5, s.465]. Onunla birlikdə hökumət qoşununda vuruşan Şəki hakimi Kiçik xan da həlak oldu, Gəncə hakimi Uğurlu xan isə qaçıb qalada gizlənməklə canını qutardı [6, III c., s.320-321].

Şah Sultan Hüseyn Keyxosrov xanı Şirvana yeni bəylərbəyi təyin etdi və ixtiyarına böyük qoşun verdi. Keyxosrov xan üsyanı çətinliklə də olsa yatırmağa müvəffəq oldu.

Həmin dövrdə Qəbələ bölgəsinin əsilzadə bəyləri məlik Mahmudun hakimlik etməsindən narazılıqlarını bildirdilər, ondan Səfəvi şahına şikayət etdilər və hakim vəzifəsindən kənarlaşdırılmasına nail oldular. Bəylər Məlik Mahmudu həm də çoxlu sərvət toplayaraq şaha qarşı çıxmaqda günahlandırmışdılar. Səfəvi şahı məlik Mahmudun bütün mülkiyyətini əlindən alıb xəzinəyə verməyi, özünü isə ailəsi ilə birlikdə zindana salmağı əmr etdi. Tarixi mənbələrdə Məlik Mahmudun xəzinəyə çoxlu sayda mülk və mal-qaradan əlavə, 70 min tümənlik başqa əmlak da verdiyi əks olunmuşdur. Onun dəyirmanları, çəltik döymək üçün 500 qurğusu, baramaaçan 500 küm və mancanağı, geniş torpaqları, əkin sahələrini suvarmaq üçün çoxlu sayda arxlarının olduğu [4, s.73] xəbər verilir. Məlik Mahmud və qardaşı Əhməd bir neçə ay Şamaxı zindanında saxlanıldıqdan sonra azad edildilər, Qəbələ hakimliyi də məlik Mahmuda qaytarıldı.

Bir neçə il sonra Şamaxı hakimi Hüseyn xan bu iki qardaşı yenidən tutdurdu, şahın əmri ilə onların boynu vuruldu. Məlik Mahmudun Peykar, İbrahim və Qasım adlı oğulları da həbs edilərək əzab və işgəncələrə məruz qaldılar. Onların 25 min tümənlik əmlakları əllərindən alındıqdan sonra həbsdən azad edildilər. Peykar şahın yanına getdi, məlik təyin olunmaq üçün fərman alaraq, atasının yerinə Qəbələdə hakimlik etməyə başladı. Dörd il sonra Şamaxı hakimi Hüseyn xan Peykarı öz evində edam etdirdi, mal-mülklərini ələ keçirdi [4, s.73]. Peykarın qardaşları İbrahim və Qasım Ərəş hakimi Əli sultanın yanına qaçaraq, ondan yardım istədilər.

Qəbələ ölkəsində baş verən bu hadisələr həmin ərazilərdə və qonşu bölgələrdə Səfəvi hakimiyyətinə qarşı yeni üsyanlara rəvac verdi.

Ümumiyyətlə, Səfəvi şahının vergiləri artırması, feodal hakimlərin özbaşınalığı əhalinin vəziyyətini olduqca ağırlaşdırmışdı. Etiraz çıxışları qəddarlıqla yatırılsa da, əhalinin güzaranını yaxşılaşdırmaq üçün heç bir addım atılmırdı. Ona görə də 1719-cu ildə Qubada, Şirvanda və digər qonşu bölgələrdə yeni xalq çıxışları başladı. Bu üsyanlar və Şərq vilayətlərində əfqanların baş qaldırması Səfəvi dövlətinin qüdrətini sarsıtdı, tənəzzülünü sürətləndirdi. Bundan yararlanan Rusiya Səfəvi dövlətinin Xəzərboyu bölgələrini, Osmanlı dövləti isə Cənubi Qafqazın bütün digər bölgələrini işğal etmək üçün hərəkətə keçdi. 1723-1725-ci illərdə Osmanlı sultanı III Əhməd (1703-1730) Cənubi Qafqazdakı Səfəvi mülklərinin əksər hissəsini

özünə tabe etdi. Bu zaman Ərəş hakimi Əli sultan Osmanlı qoşunlarına yardım göstərdi və əvəzində paşa rütbəsi aldı, Şəki vilayətinin hakimi təyin edildi [6, III c., s.340].

Osmanlı sultanı Qazıqumuqlu Surxay xanı öz tərəfinə çəkmək üçün 1727-ci ildə ona ikibunçuqlu paşa rütbəsi verdi, aylıq məvacib təyin etdi və Qəbələ bölgəsinin idarəsini də ona tapşırdı. Lakin Surxay bununla kifayətlənmədi və Ağdaş bölgəsini də ələ keçirdi və yalnız bundan sonra sultan III Əhmədə sədaqət andı içdi, həmin yerləri Osmanlı dövlətinin adından idarə etməyə başladı [6, III c., s.341].

Şirvanda və Dağıstanda öz mövqeyini möhkəmləndirməyə girişən Hacı Davud da kömək üçün Osmanlı dövlətinə müraciət etmişdi. Sultan III Əhməd 1722-ci ilin payızında onu öz himayəsinə götürdü və Şirvanın və Dağıstanın hakimi təyin etdi. Hacı Davud Krım xanı səviyyəsində Osmanlı təbəəliyinə qəbul edildi, tezliklə ona bir neçə alay hərbi qüvvə və artilleriya verildi. Lakin Hacı Davud Şirvan əhalisinin rəğbətini qazanıb mövqeyini möhkəmləndirə bilmədi. O, Osmanlı sultanının çoxlu vergi toplayıb göndərmək tələbini də yerinə yetirmədi və Rusiya himayəsinə keçmək üçün müraciət etdi. Həmin vaxt Hacı Davudun Səfəvi şahı II Təhmasibə məktub göndərərək ona qulluq etməyə hazır olması haqqında da xəbərlər yayılmışdı.

Osmanlı sarayında Hacı Davudun sultan III Əhmədə sədaqətinə şübhə ilə yanaşılmağa başlandı. Osmanlı sultanının əmri ilə 1728-ci ildə Hacı Davud həbs edildi, ardınca da ailəsi ilə birlikdə Rodos adasına sürgünə göndərildi. Qazıqumuqlu Surxay xan paşa rütbəsilə Şirvana hakim təyin edildi [7, s.331].

1730-cu ildə Nadir xanın başçılığı ilə Səfəvi qoşunları Osmanlı və Rusiya işğalında olan torpaqları azad etmək üçün hərbi əməliyyatlara başladı. İlk zərbə Təbrizdəki Osmanlı qarnizonuna vuruldu, ardınca bütün Cənubi Azərbaycan Osmanlı qüvvələrindən təmizləndi. Lakin həmin vaxt Xorasanda Səfəvi hakimiyyətinə qarşı üsyan başladı və Nadir xan hücumu dayandırıb həmin iğtişaşları yatırmağa getdi. Bundan istifadə edən Osmanlı dövləti Cənubi Azərbaycanı yenidən işğal etmək üçün ordu göndərdi. 1731-ci ildə Osmanlı komandanlığının əmri ilə Surxay xan da qoşunu ilə Təbrizə doğru hərəkət etdi [6, III c., s.345].

Nadir xan Xorasandan qayıtdıqdan sonra yenidən Cənubi Azərbaycanı Osmanlı qüvvələrindən təmizlədi, ardınca da bütün Cənubi Qafqazı azad etmək üçün hücuma keçdi. Nadir xan ilk növbədə Şirvanda özünü ağa kimi aparan Surxay xana zərbə vurmağı qərara aldı. Döyüş 1734-cü il sentyabrın 6-da *Qəbələ bölgəsində Dəvəbatan adlı yerdə* baş verdi. Surxay xanın 20 minlik qoşunu məğlub olub Qazıqumuğa çəkildi, müttəfiqləri isə Gəncəyə qaçdılar [8, s.67-68; 5, s.491]. *Surxay xanın ordugahı olan Qəbələ mahalındakı Xaçmaz qalası Nadir xanın ordusu tərəfindən tutuldu* və çoxlu qənimət - "bütün ordu ləvazimatı və təchizatı Sərdar (Nadir xan - Q.Ə.) qoşununun əlinə keçdi" [3, s.145].

Daha sonra Nadir xan Şamaxıya və Qazıqumuğa sığınmış düşmənlərinə sarsıdıcı zərbə vurdu. Dağıstandan zəfərlə dönən Nadir xan ordusunu yenidən *Qəbələ bölgəsində* cəmləşdirdi. Özü isə bir həftə *Qutqaşın kəndində* dincəldikdən sonra Gəncəyə doğru yürüş əmrini verdi. Qoşun oktyabrın 11-də *Ərəş yaxınlığında* Kür üzərindəki körpüdən keçib Gəncə istiqamətində

hücuma başladı. Gəncə mühasirəyə alındı və 7 aydan çox davam edən ağır döyüşlər başladı. Nadir xan 1735-ci ilin iyunun 8-də Eçmiədzin döyüşündə daha bir Osmanlı qoşununu məğlubiyyətə uğratdı və Qarsa qədər bütün əraziləri geri aldı. Bundan xəbər tutan Gəncə və Tiflis qalalarında müdafiə olunan Osmanlı qarnizonları yardım almaq ümidlərini itirib təslim oldular. Osmanlı qüvvələri bu qalalardakı topları, bütün sursatı və əsirləri təhvil verdilər və bunun qarşılığında sağ-salamat Osmanlı hüdudlarına çəkilib getmək icazəsi aldılar.

Nadir xanın bir-birinin ardınca qazandığı böyük uğurlardan qorxuya düşən Rusiya elçisi 1735-ci il martın 10-da *Gəncədə* onunla müqavilə bağladı. Gəncə müqaviləsinə görə, Rusiya qoşunları şimalda Terek çayına qədər bütün Xəzərboyu əraziləri tərk etməyi öhdəsinə götürdü [7, s.337]. Bu qələbələr nəticəsində Nadir xan bütün Şimali Azərbaycanı, eləcə də Şərqi Gürcüstanı Osmanlı imperiyasından geri aldı, Rusiya isə Xəzərsahili Azərbaycan və Dağıstan torpaqlarını tərk etməyə məcbur oldu. 1736-cı il fevralın 26-da Nadir xan Cavadda keçirilən qurultayda Səfəvi sülaləsinin hakimiyyətinə son qoydu və özünün şah seçilməsinə nail oldu. Bütün Azərbaycan torpaqları ilə birlikdə Ərəş, Qəbələ və Qutqaşın torpaqları da Nadir şah Əfşarın (1736-1747) imperiyasına qatıldı.

Nadir şahın hakimiyyəti dövründə Şirvan vilayəti ilə yanaşı, Ərəş, Qəbələ və Qutqaşın mahallarında yaşayan əhali də vergilərin artırılmasından və çox qəddarlıqla toplanmasından, bütün gənclərin zorla orduya səfərbər edilməsindən narazı idi. Ona görə də insanlar Nadir şahın hakimiyyətinə qarşı yönəlmiş və "yaxşı hökmdar" ideyası ilə baş verən üsyanlara rəğbətlə yanaşır, onların sıralarına qoşulurdular.

Nadir şah Hindistan yürüşündən qayıtdıqdan sonra - 1741-ci ilin yayında 100 minlik ordu ilə Azərbaycanın şimalına və Dağıstana yürüş etdi. Nadir şahın ordusu Bərdə, Qəbələ və Şahdağdan keçərək Qazıqumuğa irəlilədi, Dağıstanda böyük miqdarda qənimət ələ keçirdi. Nadir şah qoşunu ilə Şamaxıya və Dağıstana bu yürüşü zamanı *Qəbələdən keçən yoldan* istifadə etmişdi [9, s.74; 4, s.74].

XVIII əsrin 40-cı illərində Şimali Azərbaycanda və Dağıstanda Nadir şahın ağır vergi siyasətinə və qoşun üçün davamlı əsgəri qüvvə tələb etməsinə qarşı xalq hərəkatının yeni daha güclü dalğası başlandı. 1743-cü ildə Şirvanda özünü Səfəvi xanədanının hakimiyyətdən uzaqlaşdırılmış şahzadəsi kimi qələmə verən iki Sam Mirzə mübarizəyə başladı. Qısa müddətdə 50 minlik üsyançı ordu yaradan I Sam Mirzə Yeni Şamaxını ələ keçirdi və dərhal şəhər əhalisini Nadir şah tərəfindən qoyulmuş ağır vergilərdən azad etdi. I Sam Mirzə öldürüldükdən sonra başqa bir yalançı şahzadə - II Sam Mirzə mübarizəyə başçılıq etdi. Qısa müddət ərzində Şimali Azərbaycanın çox hissəsini Nadir şahın məmurlarından təmizlədi. *Ərəş, Qəbələ və Qutqaşın bölgələrinin əhalisi bu üsyanlarda fəal iştirak edirdi.* Nadir şah bu üsyanları böyük ordu birlikləri göndərərək çətinliklə yatırdı.

1743-cü ildə Şəki vilayətində Hacı Çələbi Qurban oğlunun başçılığı ilə yeni üsyan başladı. *Qəbələ mahalının əhalisi* də bu xalq çıxışında fəal iştirak etdi. "Qəbələlilər silah qaldıraraq sıx meşələrə çəkildilər, Hacı Çələbinin özlərinə başçı seçdilər və alınmaz Gələsən-

Görəsən dərəsində onun dəstəsinə qoşuldular" [10, s.357]. Üsyanı yatırmaq üçün Nadir şah böyük ordu ilə Kür çayının sol sahilinə hərəkət etdi, *Ərəş yaxınlığında ordugah qurdu.* Onun məqsədi burada ordunun təchizatını təmin etmək, sonra da Ərəş və Qəbələdən keçib Şəkiyə doğru irəliləmək idi. Lakin Nadir şah qoşunu ilə Ərəşdə dayanmalı oldu. Çünki onun Şəki üsyançıları üzərinə göndərdiyi Mirzə xanın cəza dəstəsi Qəbələ yaxınlığında məğlubiyyətə uğradılmış, Mirzə xan isə həmin döyüşdə öldürülmüşdü [9, s.84, s.95; 4, s.74].

Bu hadisədən sonra Şəki ilə yanaşı, *Ərəş, Qəbələ və Qutqaşın bölgələri də Nadir şahın tabeliyindən çıxdı.* A. Bakıxanov bu hadisə ilə bağlı yazmışdır: "Hacı Çələbi Qurban oğlu istiqlaliyyət bayrağı qaldıraraq, Şəki, Ərəş və Qəbələ mahallarını özünə tabe etdi" [3, s.162]. Nadir şahın ordusunun hücumlarına qarşı Hacı Çələbi tərəfdarları ilə birlikdə Gələsən-Görəsən qalasında 3 il müqavimət göstərdikdən sonra, qüvvəsi tükəndiyi üçün mübarizəni dayandırmağa məcbur qaldı. Nadir şah da 1746-cı ilin yanvar ayının 31-də verdiyi fərmanla Hacı Çələbini bağışladı və Şəki, Şirvan və Qəbələdə qayda-qanuna əməl olunmasına nəzarət etməyi ona tapşırdı [11, s.74]. Şəki və qonşu mahallarda Nadir şahın hakimiyyəti bərpa edilsə də, bölgədə nüfuzu əsaslı şəkildə sarsılmışdı.

Mirzə Camal Cavanşir Qarabaği "Qarabağ tarixi" adlı əsərində yazmışdır ki, Nadir şahla münasibəti pozulduqdan sonra gələcək Qarabağ xanı Pənahəli bəy də 1744-cü ildə Xorasandan - şah dərgahından qaçaraq *"Şəki vilayətinin Qəbələ mahalında"* vaxtını keçirirdi [12, s.126]. O, tərəfdarlarını ətrafına toplayaraq 200 nəfərlik dəstə yaratmış, Şəkiyə, Gəncəyə və digər inzibati mərkəzlərə yürüşlər etməyə başlamışdı [11, s.35, s.36], Pənahəli bəy sadə xalq kütləsinin rəğbətini qazanmaq üçün ələ keçirdiyi bütün qəniməti: mal-qaranı, atları onlara bağışlayırdı. A. Bakıxanov və Mirzə Adıgözəl bəy bununla bağlı yazmışlar ki, Pənah bəy İbrahimxəlil oğlu Cavanşir Nadir şah dövrünün axırlarında qaçıb Şəki və Şirvan ölkələrində keçinirdi [3, s.162; 13, s.39]. Bütün bu faktlar Qəbələ ölkəsinin Nadir şahın daxili siyasətinə qarşı genişlənən xalq hərəkatının mühüm mərkəzlərindən biri olduğunu göstərir.

## 3. Müstəqil feodal hakimliklərinin yaranması

1747-ci ildə Nadir şahın öldürülməsindən sonra *onun yaratdığı nəhəng imperatorluq dağıldı*, qoşunu da Azərbaycandan çəkildi. Azərbaycanda və imperiyanın digər yerlərində müstəqil və yarımüstəqil feodal hakimlikləri: xanlıq, sultanlıq və məlikliklər yarandı. A. Bakıxanovun qeyd etdiyi kimi: "hər bir vilayətdə bir həşəmət sahibi baş qaldıraraq, istiqlaliyyətdən dəm vurub başqasına tabe olmurdu" [3, s.161]. Ərəş, Qəbələ və Qutqaşın sultanlıqları da bu zaman müstəqilliklərini elan etdilər [2, s.110]. Lakin bu uzun sürmədi.

Hacı Çələbi xan Şəki bölgəsində möhkəmləndikdən sonra, bütün Azərbaycanı özünə tabe etmək üçün hərəkətə keçdi. Lakin onun Təbrizə və Qarabağa yürüşləri uğursuz oldu. 1748-ci ildə Bayat savaşından geri döndükdən sonra qüvvələrini möhkəmləndirməyi qərara aldı, *Ərəş, Qutqaşın və Qəbələ sultanlıqlarını Şəki xanlığına birləşdirdi* [5, s.517]. O zamandan bu sultanlıqlar Şəki xanlığının vassalı kimi davranırdılar. Hacı Çələbi xan 1749-cu ildə *Ağamoğlan*

*bəyi Qutqaşın hakimi təyin etdi.* Ərəş və Qəbələ sultanları isə Hacı Çələbi xanın ali hakimiyyətini qəbul etməklə, öz mülklərində yerli idarəçiliyi saxladılar [10, s.357].

XVIII əsrin 50-ci illərində Ərəş, Qutqaşın və Qəbələ sultanlıqlarının Şəki xanlığından tam asılı vəziyyətdə olması mənbələrdə və tarixi ədəbiyyatda açıq şəkildə əks olunmuşdur [2, s.98; 14, s.140].

1755-ci ildə Şəki xanı Hacı Çələbi öldü, xanlıq taxtına oğlu Ağakişi bəy çıxdı. Lakin onun Şəkidə xan kimi hakimiyyəti cəmi 5 il davam etdi. 1760-cı ildə qayınatası Qazıqumuqlu Məhəmməd xan Ərəşə gələrək Ağakişi xanı oraya çağırdı və *Ərəş sultanı Məlik Əliməhəmməd* xanın sözü ilə öldürdü [15, s.15]. Bakıxanov həmin hadisəni belə təsvir etmişdi: "Qazıqumuqlu Məhəmməd xan *Ərəşli məlik Əlinin* təhrikilə Ərəş mahalına gəlib, Ağakişi bəyi görüş və məşvərət bəhanəsilə yanına çağırdı və öldürdü" [3, s.164]. Məhəmməd xan Şəkidə öz hakimiyyətini elan edib qarətlərə başladı, Hacı Çələbi xanın bütün dəfinələrini ələ keçirdi. Zülm və özbaşınalıq gücləndi. Ona görə də cəmi 40 gün hakimiyyətdə qala bildi.

Hacı Çələbi xanın nəvəsi Hüseyn ağa *Qəbələ yolu ilə* Dərbəndə gedərək Fətəli xandan hərbi yardım aldı. Quba qoşununun və Şəki əhalisinin yardımı ilə Məhəmməd xanı şəhərdən qovdu və xanlıqda hakimiyyəti öz əlinə aldı [3, s.164-165; 5, s.519]. Ərəş sultanı məlik Əli bu qarışıqlıqdan istifadə edib, müstəqil siyasət yeritməyə başladı. Qutqaşın sultanlığı da öz müstəqilliyini bərpa etdi.

Qəbələ sultanlığında isə vəziyyət fərqli məcrada cərəyan etdi. XVIII əsrin 50-ci illərinin ortalarında baş verən müharibə və hərbi toqquşmalar, həmçinin təbii fəlakətlər, epidemiyalar Qəbələ şəhərinin tənəzzülünü sürətləndirdi. XX yüzilliyin başlanğıcında Azərbaycan və Cənubi Qafqaz tarixinə aid qiymətli əsərlərin müəllifi Rəşid bəy İsmayılov qeyd etmişdir ki, 1754-cü ildə Azərbaycan bədbəxtliyə düçar olmuş, vəba epidemiyası on minlərlə insanı məhv etmişdi. Ağsu əhalisinin yarısından çoxu həlak olmuşdu [8, s.80]. Bəla Qəbələdən də yan keçməmişdi. Bir sıra mənbələrdə həmçinin Şəki xanı Hacı Çələbinin oğlu Ağakişi xanın hakimiyyətə gəldiyi 1755-ci ildə bu bölgədə güclü zəlzələ baş verdiyi qeyd olunmuşdur. Həm kütləvi epidemiya, həm də güclü zəlzələ Qəbələyə sarsıdıcı zərbə vurdu, şəhərin iqtisadi-siyasi cəhətdən rolu zəiflədi, əhalisinin əksəriyyəti müxtəlif yaşayış məntəqələrinə köçüb getdi. Bütün bunlar isə, son nəticədə Qəbələnin şəhər, sultanlıq mərkəzi statusunu itirməsinə gətirib çıxardı. Qəbələ sultanlığının torpaqlarında *Bum və Xaçmaz mahalları* yaradıldı. Bu mahalları Şəki xanlarının təyin etdiyi naiblər idarə etməyə başaldılar.

XVIII əsrin ikinci yarısında yalnız Qəbələ şəhər yerinin Qala sahəsinin cənub tərəfində yaşayış davam etmişdi. Lakin həmin yaşayış yerinin qərb kənarından axan Qaraçayda tez-tez baş verən sel təhlükəsinə görə, əhali oranı da tərk edərək bir qədər aralıya - yeni əraziyə köçdü. Beləcə, Çuxur Qəbələ adlı yeni yaşayış məntəqəsi yarandı [4, s.75].

Urmiyalı Fətəli xan Əfşar Azərbaycanın cənub xanlıqlarını özünə tabe etdikdən sonra, 1762-ci ildə şimala doğru hərəkətə keçdi, İrəvan, Gəncə və Qarabağ xanlarını itaət altına aldı. Bu zaman Qutqaşın sultanlığı da Urmiyalı Fətəli xana tabe oldu [6, III c., s.383].

*Ərəş sultanı məlik Əli* də tələsik Urmiyalı Fətəli xanın hüzuruna gedərək, itaət göstərdi, ardınca da Şəki xanlığının idarəsini ona verməyi təmənna etdi. Fətəli xan əvvəlcə Ərəş sultanının yardımı ilə Hüseyn xanı taxtdan salıb, Şəki xanlığını öz təsiri altına almağı düşünürdü. Lakin Hüseyn xan zirək tərpənib *Qutqaşınlı Kəlbəli sultan* və digər tərəfdarları ilə birlikdə Fətəli xanın hüzuruna getdi, bahalı hədiyyələr təqdim etdi və itaət göstərdi. Fətəli xan da ona xanlıq ləqəbi verdi və Şəki xanlığının idarəsini tapşırdı. Hüseyn xan geri qayıdan kimi Ərəş sultanı məlik Əlini öldürdü, bütün mülklərini isə yenidən Şəki xanlığına birləşdirdi [3, s.165; 5, s.519]. Hüseyn xan eyni zamanda Ərəş sultanlığında təsirini gücləndirmək və buradakı əhalinin rəğbətini qazanmaq üçün məlik Əlinin qızı ilə evləndi. Kərim ağa Fateh "Şəki xanlarının müxtəsər tarixi" adlı əsərində bu faktı xüsusi vurğulamış və əlavə etmişdi: "Ərəş sultanı məlik Əlinin oğlanları o vaxtda Ərəşdə böyük, sikkəli və güclü bəylər imiş ..." [15, s.17].

Bir müddət sonra Şəki hakimi Hüseyn xan mövqeyini möhkəmlətmək üçün rəqib saydığı əmisi Cəfər ağanı öldürüb, öz xənadanında yeni ədavətin əsasını qoydu. Hacı Çələbi xanın digər oğlu Hacı Əbdülqadir bu qətl hadisəsindən sonra, öz tərəfdarları ilə birlikdə ondan üz döndərdi və Qarabağlı İbrahimxəlil xana sığındı. Qarabağ xanının yardımı ilə *Ərəş mahalında Kür çayı kənarında Dardoqqaz adlı yerdə məskunlaşdı* [3, s.171]. Hüseyn xan bir neçə dəfə onun üzərinə hücum etsə də, uğur qazana bilmədi. Bu müvəffəqiyyətsizlikdən qəzəblənərək Hacı Əbdülqadirin tərəfinə keçmiş Qutqaşınlı Kəlbəli sultanı, Qışlaqlı Hacı ağanı və Hacı Çələbi xanın əmisi oğlu Hacı Rəsul bəyi həbsxanaya saldı. Az sonra Hacı Rəsul bəy həbsdən qaçdı, Qutqaşınlı Kəlbəli sultan və Qışlaqlı Hacı ağa isə həbsxanada öldürüldülər [3, s.171].

1779-cu ildə Hacı Əbdülqadir Ərəş məlikzadələrini və Şəkinin nüfuzlu şəxslərini öz tərəfinə çəkdi və Hacı Rəsul bəyin də yardımı ilə qəflətən Şəki qalasına hücum etdi. Hüseyn xan öldürüldü, Hacı Əbdülqadir xanlıq taxtına yiyələndi. 1784-cü ildə Qubalı Fətəli xanın Qarabağa yürüşü zamanı Hacı Əbdülqadir xan da Şəki qoşunu ilə ona yardım etdi. Yürüş zamanı Qarabağın aşağı mahalları qarət edildi, lakin yürüş bütövlükdə nəticəsiz oldu. Hacı Əbdülqadir xan bu hərəkətindən qəzəblənən Qarabağlı İbrahimxəlil xan Şuşada həbsxanada saxladığı keçmiş Şəki hakimi Hüseyn xanın oğlu Məhəmmədhəsən ağanı azad edib Cara göndərdi. Məhəmmədhəsən ağa carlıların köməyi ilə Şəki qalasına yiyələndi. Az sonra Hacı Əbdülqadir xanı da yeddi oğlu ilə birlikdə ələ keçirib öldürtdü [3, s.173; 16, s.17].

Məhəmmədhəsən xan mövqeyini möhkəmlətmək üçün Qubalı Fətəli xanla yaxınlaşdı, bacısını ona verdi. Sonra da Qutqaşın və Ərəş mahallarında öz hakimiyyətini gücləndirdi. Məhəmmədhəsən xanın əmri ilə Ərəş sultanlığının yeni hakimi məlik Əlinin qardaşı oğlu *sultan Şəhabəddin* keçmiş Şirvan xanı Məhəmmədsəid xanın Qarabağa qaçmış oğlanlarını və Ağası xanın oğlu Mustafa bəyi hiylə ilə ələ keçirib ona təslim etdi [3, s.174]. Əsirlər Qubalı Fətəli xanın hüzuruna göndərildi. Lakin Şirvan xanzadələri yolda ikən qaça bildilər, Osmanlı hüdudlarına getdilər. Bu hadisə XVIII əsrin 80-ci illərində Ərəş sultanlığının Şəki xanlığından tam asılı olduğunu, sultan Şəhabəddinin Məhəmmədhəsən xanın buyruğu ilə hərəkət etdiyini göstərir. Qutqaşın sultanlığında da oxşar vəziyyət mövcud idi.

1793-cü ildə Şamaxıda hakimiyyəti yenicə ələ keçirmiş Mustafa xan Şəki hakimi Məhəmmədhəsən xanın təsirindən qurtulmaq üçün Qazıqumuqlu Surxay xanla ittifaqa girdi [16, s.28]. O zaman *Ərəş hakimi sultan Şəhabəddin də Şəki xanlığının tabeliyindən azad olmaq məqsədi ilə bu ittifaqa qoşuldu.* Sultan Şəhabəddin və müttəfiqləri eyni zamanda 3 istiqamətdən Şəki xanlığına hücum etdilər: "Mustafa xan Göyçayın kənarına, Surxay xan da Xaçmaza gəlib *Qəbələnin üç mahalını* (Bum, Xaçmaz və Ağdaş - Q.Ə.) üsyana qaldırdılar. Ərəşli Şəhabəddin sultan da qarabağlılardan bir dəstə gətirdib Məhəmmədhəsən xanın əleyhinə qalxdı" [3, s.178]. Şamaxılı Mustafa xan, Qazıqumuqlu Surxay xan və Ərəş sultanı Şəhabəddin ilə birləşib, Qəbələ bölgəsinə və Şəkiyə hücum edərək xeyli ərazi ələ keçirdi, öz mövqeyini Şirvanda gücləndirdi [8, s.75]. Lakin bütövlükdə bu hücumlar nəticəsiz oldu. Məhəmmədhəsən xan igidliklə vuruşaraq öz mülklərini geri aldı, Mustafa xanı, Surxay xanı və qarabağlıları geri qayıtmağa məcbur etdi.

Yalnız Şəhabəddin sultan Ərəş qalasının möhkəmliyinə və qonşu feodal hakimlərin himayəsinə güvənərək, Şəki xanlığına qarşı mübarizəni davam etdirir, Ərəş və Ağdaş bölgələrində Məhəmmədhəsən xanın hakimiyyətinə son qoymağa çalışırdı. Məhəmmədhəsən xan da bir neçə dəfə onun üzərinə qoşun göndərsə də, ciddi bir uğur qazana bilmədi. Bir ildən çox davam edən qarşıdurmanın sonunda Şəhabəddin sultan qüvvəsi zəiflədiyinə görə, təslim olduğunu bildirdi və Məkkəyə ziyarətə getmək üçün Məhəmmədhəsən xanın yanına gedib icazə istədi. Lakin onun bu arzusu yerinə yetirilmədi. Şəki xanının əmri ilə o və övladları, həmçinin yaxın qohumlarının bir qismi öldürüldü [3, s.178].

Bu hadisədən az sonra - ***1794-cü ildə*** Məhəmmədhəsən xan Şamaxılı Mustafa xana qarşı Qubalı Şeyxəli xanla ittifaq yaratdı və birlikdə Ağsu şəhərinə hücum etdilər. Lakin müttəfiqlər şəhəri bir neçə ay mühasirədə saxlasalar da, sonda əliboş öz mülklərinə döndülər.

**Nəticə.** Məhəmmədhəsən xan öz mövqeyini gücləndirmək və Ərəş sultanlığında separatizmə qəti son qoymaq üçün hərəkətə keçdi: bu feodal hakimliyinin sultanlıq adını ləğv etdi, adi mahal səviyyəsinə endirdi. *Ərəş sultanlığının ərazisində 4 yeni inzibati vahid: Ərəş, Ağdaş, Alpout və Padar mahalları yaradıldı.* Həmin mahalları Şəki xanının təyin etdiyi naiblər idarə etməyə başladılar.

İranda və Cənubi Azərbaycanda hakimiyyəti ələ keçirmiş Ağa Məhəmməd xan Qacarın 1795-ci ilin payızında Tiflisin fəthindən sonra Muğana gəldiyi zaman, Şəki hakimi Məhəmmədhəsən xan ona çoxlu hədiyyələr göndərib sədaqətini bildirdi. Qacarın Şamaxılı Mustafa xanı cəzalandırmaq üçün göndərdiyi orduya da köməklik göstərdi. Qacarın ordusu və Şəkidən gələn dəstələr Şamaxıya yaxınlaşdıqda, Mustafa xan vaxt itirmədən şəhər əhalisini Fit dağında yeni inşa etdiyi əlçatmaz qalaya köçürdü. Qacarın ordusu və Şəkidən gələn dəstələr heç bir müqavimətə rast gəlmədən Şamaxıya daxil olub şəhəri qarət etdilər [6, III c., s.392]. Qacarın ordusu daha sonra Ağsu şəhərini tutub yağmaladı və oradan Ağdaşa gəlib, bir neçə gün orada qaldıqdan sonra Xaçmaz mahalına hərəkət etdi, Tərkəş kəndində dayandı [3, s.181; 15, s.18].

Məhəmmədhəsən xanın qardaşı Səlim ağa bu qarışıqlıqdan istifadə etdi, Car və Avar qoşunu ilə Şəkiyə hərəkət etdi. Şəhəri ələ keçirib, xanlıq taxtına çıxdı. Məhəmmədhəsən xanın 7 oğlunu öldürüb, xanlığın mərkəzini *Gələsən-Görəsən qalasına* köçürdü. Məhəmmədhəsən xanın yardım üçün Tərkəşə gedib, oradakı Qacar ordusu başçısına müraciət etməsi nəticəsiz qaldı. Əksinə Şəki əhalisinin şikayətinə görə, onun gözləri çıxarıldı və dustaq edilərək Təbrizə göndərildi [6, III c., s.393]. Həmin hadisələr zamanı Ərəş bölgəsində müstəqilliyin bərpası üçün hər hansı bir çıxış baş verməsi ilə bağlı mənbələrdə məlumat yoxdur. Bu da XVIII əsrin 90-cı illərində Ərəş sultanlığında separatizmə qəti son qoyulduğunu təsdiq edir.

XVIII əsrin sonunda Qutqaşın sultanlığı da yarımüstəqil feodal hakimliyi statusunu itirmiş, adi mahala çevrilmişdi. Bununla belə, Qutqaşın sultanı Şəki xanlarına loyal münasibətinə görə, öz titulunu saxlamışdı. Lakin o da mahal naibi səviyyəsində hüquqlara malik idi. Tarixçi Kərim Şükürov bununla bağlı yazmışdır ki, sultanlığı Şəki xanının yerli Qutqaşın sultanlarından təyin etdiyi naiblər idarə edirdi [17, s.197]. Lakin onun Qutqaşın sultanı Məhəmməd Şəfinin malikanəsinin bir hissəsini XVIII əsrin sonunda Şəki hakimi Məhəmmədhəsən xana, qalan hissəsini isə XIX əsrin əvvəllərində Cəfərqulu xana satması [17, s.197] haqqında fikirləri mənbələrdə təsdiqini tapmır. Əksinə XIX əsrin ilk onilliklərinə aid mənbələrdə Qutqaşın mahalındakı kəndlərin əksəriyyətinin Nəsrullah sultan və Əhməd sultan qardaşlarının mülkiyyətində olduğu əks olunmuşdur [1, s.77, s.89].

Ərəş, Qəbələ və Qutqaşın bölgələri yarımüstəqil sultanlıq statusunu itirdikdən sonra da Şəki xanlığında baş verən hadisələrdə fəal iştirak edirdi. 1797-ci ildə Ağa Məhəmməd şah Şuşada öldürüldükdə, həmin vaxt orada olan Şamaxılı Mustafa xan şahın Təbrizdən gətirib Muğanda saxladığı kor Məhəmmədhəsən xanı özü ilə aparıb Şirvanı aldı. Oradan da Qəbələ və Ərəş üzərindən Şəkiyə hərəkət etdi. Səlim xan Şəkini tərk edib Qarabağa qaçdı. Xanlıq taxtına yenidən Məhəmmədhəsən xan çıxdı [3, s.186; 15, s.19].

Məhəmmədhəsən xan bu dəfə 8 il xanlıq etdi və hakimiyyətinin sonunda Şamaxılı Mustafa xanla düşmən oldu. Mustafa xan da ona qarşı Səlim xanı Qarabağdan gətirib Şəki xanlıq taxtına çıxarmaq üçün hərəkətə keçdi. Səlim xanı Ağdaş mahalına göndərdi. O da Ağdaşda bir neçə gün qaldıqdan sonra, Ərəş və Şəki bəylərinin bir qismini öz tərəfinə çəkib, gecə vaxtı qəflətən Şəkiyə daxil oldu və yenidən ilyarım xanlıq etdi [1517, s.19].

Səlim xan 1805-ci il mayın 14-də Kürəkçayda Rusiya himayəsinə keçmək haqqında müqavilə imzaladı. Şəki xanlığı ilə birlikdə Ərəş, Qəbələ və Qutqaşın bölgələri də Rusiya tabeliyinə düşdü. 1818-ci ildə isə Rusiya Kürəkçay müqaviləsini pozaraq, Şəki xanlığını ləğv etdi, rus komendantının idarə etdiyi əyalətə çevirdi. Həmin haddisələrə aid mənbədə Şəki xanlığının ləğvindən sonra yaradılmış eyni adlı əyalətin 8 mahalı olduğu qeyd edilmiş, Şəki mahalı ilə yanaşı, Ərəş, Ağdaş, Alpout, Padar, Bum, Xaçmaz və Qutqaşın da mahal kimi əks olunmuşdur [1, s.5; 10, s.323-392; 23].

**Ədəbiyyat**

1. Ермолов А., Ахвердов Ф., Могилевский А. (1866), Описание Шекинской Провинции Составленное в 1819 Году Генерал-Майором Ахвердовым и стат.сов. Могилевским. Тифлис, Тип. Гл. упр. Наместника Кавказа, 98.
2. Абдуллаев Г. (1965), Азербайджан в XVIII Веке и Взаимоотношения Его с Россией. Баку, 621.
3. Bakıxanov A. (1951), Gülüstani-İrəm. Bakı, 255.
4. Bünyadov T.Ə. (2017), Qəbələ Tarixi. Bakı, 312.
5. Əliyarlı S.S. (1996), Azərbaycan Tarixi (Uzaq Keçmişdən 1870-ci İllərə Qədər). Bakı, Azərbaycan nəşriyyatı, 872.
6. Azərbaycan Tarixi, 2007, yeddi cilddə, III cild, 592; IV cild, 504. Bakı: Elm.
7. Əliyev Q.Ə. (2009), Qafqaz Tarixi (Ən Qədim Çağlardan XVIII əsrin sonunadək), I hissə. Bakı, Elm, 448.
8. İsmayılov R. (1993), Azərbaycan Tarixi. Bakı: Azərnəşr, 164.
9. Абдурахманов А.А. (1964), Азербайджан во Взаимоотношениях России, Турции и Ирана в Первой Половине XVIII в. Баку, 135.
10. Шекинская провинция (1836), Обозрение Российских владений за Кавказом, в статистическом, топографическом и финансовом отношениях. ч. III. СПб: Тип. Департамента внеш.торговли, 323-392.
11. Axundov N.F. (1989), Qarabağ Salnamələri. Bakı, Yazıçı nəşriyyatı, 232.
12. Qarabaği M.C.C. (2006), Qarabağ Tarixi. Qarabağnamələr, 1-ci kitab. Bakı, Şərq-Qərb, 117-166.
13. Mirzə Adıgözəl bəy (2006), Qarabağnamə. Qarabağnamələr, 1-ci kitab. Bakı, Şərq-Qərb, 7-116.
14. Mustafazadə T.T. (2011), Azərbaycan Xanlıqlarının Qısa Tarixi. Bakı, 388.
15. Kərim ağa Fateh (1993), Şəki Xanlarının Müxtəsər Tarixi. Şəki Xanlığının Tarixindən. Bakı, 9-21.
16. Мустафаев Дж.М. (1989), Северные Ханства Азербайджана и Россия (Конец XVIII - Начало XIX в.). Баку, Элм, 128.
17. Şükürov K.K. (2004), Azərbaycan Tarixi, üç hissədə, 2-ci hissə. Ən Qədim Zamanlardan Bizim Günlərədək: Dövrlər, Hadisələr, Sinxronlaşdırılmış Cədvəllər. Bakı, 380.